

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 243 (24.380)

29 dekabr 2023-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.gov.az

Qiyməti 30 qəpik


## Ali Məclisin 2023-cü il payız sessiyasının doqquzuncu iclası keçirilib









Dekabrın 28-də Ali Məclis sədrinin müavini Anar İbrahimovun sədrliyi ilə altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2023-cü il payız sessiyasının doqquzuncu – sonuncu iclası keçirilib.

İclasda Ali Məclis Aparatının rəhbəri Ülvi Hüseynli çıxış edərək Naxçıvan Muxtar Respublikası Ali Məclisinin illik fəaliyyəti ilə bağlı məlumat verib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimov bildirib ki, Ali Məclis həm qanunvericilik sahəsində, həm də vətəndaş müraciətlərinə baxılması işində il ərzində səmərəli fəaliyyət göstərib. Ali Məclisə daxil olan müraciətlərin çoxu əmək, mülkiyyət hüquqlarının pozulması, su təminatı ilə bağlı məsələlər olub. Ali Məclis tərəfindən gələcək fəaliyyətlərdə bu istiqamətlər diqqətdə saxlanılacaq.

Anar İbrahimov qeyd edib ki, 2023-cü ildə bilavasitə Ali Məclisin fəaliyyəti ilə bağlı olan 3 yeni qanun layihəsi qəbul edilib. Bu, Ali Məclisin qanunvericilik fəaliyyətinin genişlənməsi deməkdir.

Cari məsələlərin müzakirəsi zamanı deputatlardan Turan Məmmədli, Hacıfəxrəddin Səfərli, Yazgül Rzayeva, Əmir Babayev təmsil etdikləri seçki dairələri üzrə bir sıra məsələləri diqqətə çatdırıblar.

Deputat Elman Cəfərli şəhidlərin xatirəsinin əbədiləşdirilməsi ilə bağlı təkliflərini qeyd edib, 2024-cü il növbədənkənar prezident seçkilərində əhalini fəal olmağa çağırıb.

Anar İbrahimov şəhidlərin xatirəsinin əbədiləşdirilməsi ilə bağlı deputat Elman Cəfərli tərəfindən verilən təkliflərin Ali Məclisin Humanitar siyasət komitəsi tərəfindən araşdırıldıqdan sonra növbəti yaz sessiyasında məlumat verilməsi ilə əlaqədar tapşırıq verib.

Deputatlardan Aidə Cəlilzadə, Nüsrət Həsənov, İsmayıl Qəribli və Yeganə Məmmədova da çıxış edərək seçicilərinin qaldırdığı məsələləri qeyd edib, 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbriklərini çatdırıblar.

Ali Məclis sədrinin müavini Anar İbrahimov bildirib ki, bu gün biz həm sessiyaya, həm də bu ilə, yəni 2023-cü ilə yekun vururuq. Qarşıdakı ildə Ali Məclisin daha da funksional işləməsi üçün çalışmalıyıq.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 1.5-ci maddəsinə əsasən payız sessiyası dekabrın 30-dək davam edir. Daxili Nizamnamənin 1.4-cü maddəsinə əsasən deputatlar yanvarın 1-dən 15-dək tətilə buraxılırlar və tətil dövründə deputatlar məzuniyyətdə sayılırlar.

Anar İbrahimov iclas iştirakçılarını və muxtar respublikanın bütün sakinlərini qarşıdan gələn 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edib.

Ali Məclisin sədr müavini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2023-cü il payız sessiyasını bağlı elan edib və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Bununla da Ali Məclisin 2023-cü il payız sessiyası başa çatıb.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında Naxçıvan Muxtar Respublikasının Qanunu

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 2-ci bəndini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

**Maddə 1.** Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsinin gəlirləri 173 105 000,0 manat, xərcləri 516 365 000,0 manat, gəlir və xərcləri tənzimləmək üçün ayrılan dotasiya 343 260 000,0 manat (o cümlədən, mərkəzləşdirilmiş gəlirləri 110 474 000,0 manat, yerli gəlirləri 62 631 000,0 manat, mərkəzləşdirilmiş xərcləri 464 440 000,0 manat, yerli xərcləri 51 925 000,0 manat) məbləğində təsdiq edilsin.

**Maddə 2.** Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsinin gəlirləri mədaxil mənbələri üzrə aşağıdakı məbləğlərdə nəzərdə tutulsun:

| Sıra №-si | Gəlirlərin mənbələri | Məbləğ (manatla) |
|---|---|---|
| 2.1. | Fiziki şəxslərin gəlir vergisi | 41 590 000,0 |
| 2.2. | Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi | 8 200 000,0 |
| 2.3. | Hüquqi şəxslərin torpaq vergisi | 300 000,0 |
| 2.4. | Hüquqi şəxslərin əmlak vergisi | 1 900 000,0 |
| 2.5. | Əlavə dəyər vergisi | 51 350 000,0 |
| 2.6. | Sadələşdirilmiş vergi | 3 690 000,0 |
| 2.7. | Aksizlər | 49 208 000,0 |
| 2.8. | Yol vergisi | 5 000 000,0 |
| 2.8.1. | Xarici dövlətlərdə qeydiyyatda olan avtonəqliyyat vasitələri sahibləri tərəfindən ödənilən yol vergisi | 5 000 000,0 |
| 2.9. | Mədən vergisi | 1 200 000,0 |
| 2.10. | Dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar | 60 000,0 |
| 2.11. | Dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsindən daxilolmalar | 80 000,0 |
| 2.12. | Dövlət rüsumu | 6 387 000,0 |
| 2.13. | Büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar | 4 030 000,0 |
| 2.14. | Sair daxilolmalar | 110 000,0 |

**Maddə 3.** Müəyyən edilsin ki, "Avtomobil Yolları" Məqsədli Büdcə Fondu dövlət büdcəsinin aşağıdakı mədaxil mənbələri hesabına formalaşır:

| | | |
|---|---|---|
| 3.1. | "Avtomobil Yolları" Məqsədli Büdcə Fondu | 5 870 000,0 |
| 3.1.1. | Yol vergisi | 5 000 000,0 |
| 3.1.2. | Mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən şəxslər tərəfindən ödənilən sadələşdirilmiş vergi | 150 000,0 |
| 3.1.3. | Nəqliyyat vasitələrinin, o cümlədən motonəqliyyat vasitələrinin, qoşquların və yarımqoşquların texniki baxışdan keçirilməsi üçün tutulan dövlət rüsumu | 720 000,0 |

**Maddə 4.** Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsinin xərcləri funksional təsnifatın bölmə və köməkçi bölmələri səviyyəsində aşağıdakı məqsədlərə yönəldilir:

| Sıra №-si | Xərclərin istiqamətləri | Məbləğ (manatla) |
|---|---|---|
| 4.1. | Ümumi dövlət xidmətləri | 74 900 374,0 |
| 4.1.1. | qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının fəaliyyəti | 71 756 868,0 |
| 4.1.2. | elm | 3 143 506,0 |
| 4.2. | Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq | 88 675 725,0 |
| 4.2.1. | məhkəmə hakimiyyəti | 10 311 105,0 |
| 4.2.2. | Hüquq-mühafizə | 71 490 518,0 |
| 4.2.3. | prokurorluq | 6 720 490,0 |
| 4.2.4. | hüquqi yardım | 153 612,0 |
| 4.3. | Təhsil | 160 831 186,0 |
| 4.3.1. | məktəbəqədər təhsil | 10 193 650,0 |
| 4.3.2. | ümumi təhsil | 115 626 359,0 |
| 4.3.3. | peşə təhsili | 2 564 592,0 |
| 4.3.4. | orta ixtisas təhsili | 3 492 270,0 |
| 4.3.5. | təhsil sahəsində digər müəssisə və tədbirlər | 28 954 315,0 |
| 4.4. | Səhiyyə | 11 937 343,0 |
| 4.4.1. | xəstəxanalar | 6 232 949,0 |
| 4.4.2. | səhiyyə sahəsində proqramlar və digər xidmətlər | 5 704 394,0 |
| 4.5. | Sosial müdafiə və sosial təminat | 9 136 226,0 |
| 4.5.1. | sosial müdafiə | 416 866,0 |
| 4.5.2. | sosial müdafiə və sosial təminat sahələri üzrə digər müəssisə və tədbirlər | 8 719 360,0 |
| 4.6. | Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət | 25 800 855,0 |
| 4.6.1. | mədəniyyət və incəsənət sahəsində fəaliyyət | 17 891 230,0 |
| 4.6.2. | televiziya, radio və nəşriyyat | 5 318 231,0 |
| 4.6.3. | bədən tərbiyəsi və gənclər siyasəti | 618 195,0 |
| 4.6.4. | yaradıcı ittifaq, cəmiyyət və dini tədbirlər | 402 977,0 |
| 4.6.5. | mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər müəssisə və tədbirlər | 1 570 222,0 |
| 4.7. | Mənzil və kommunal təsərrüfatı | 18 632 520,0 |
| 4.7.1. | mənzil təsərrüfatı | 805 211,0 |
| 4.7.2. | kommunal təsərrüfatı | 14 266 343,0 |
| 4.7.3. | mənzil və kommunal təsərrüfatı ilə bağlı digər xidmətlər | 3 560 966,0 |
| 4.8. | Kənd təsərrüfatı | 47 130 951,0 |
| 4.8.1. | kənd təsərrüfatı tədbirləri | 11 989 753,0 |
| 4.8.2. | baytarlıq | 3 267 042,0 |
| 4.8.3. | meliorasiya | 31 874 156,0 |
| 4.9. | Ətraf mühitin mühafizəsi | 15 536 745,0 |
| 4.9.1. | bioloji zənginliyin qorunması | 599 130,0 |
| 4.9.2. | torpaq və yerquruluşu | 820 000,0 |

| | | |
|---|---|---|
| 4.9.3. | hidrometeorologiya tədbirləri | 1 657 102,0 |
| 4.9.4. | meşə təsərrüfatı | 752 850,0 |
| 4.9.5. | ərazilərin təmizlənməsi, çirkab suların yığılması və təmizlənməsi | 11 262 163,0 |
| 4.9.6. | ətraf mühitin mühafizəsi sahəsinə aid edilən digər xidmətlər | 445 500,0 |
| 4.10. | İqtisadi fəaliyyət | 54 075 586,0 |
| 4.10.1. | nəqliyyat və rabitə | 17 115 763,0 |
| 4.10.2. | iqtisadi və kommersiya fəaliyyəti | 1 209 823,0 |
| 4.10.3. | tikinti və şəhərsalma | 22 000 000,0 |
| 4.10.3.1. | dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) | 22 000 000,0 |
| 4.10.4. | geodeziya və faydalı qazıntılar | 500 000,0 |
| 4.10.5. | yanacaq və enerji kompleksi | 10 000 000,0 |
| 4.10.6. | iqtisadi fəaliyyət ilə bağlı digər xidmətlər | 3 250 000,0 |
| 4.11. | Əsas bölmələrə aid edilməyən xərclər | 9 707 489,0 |
| 4.11.1. | ehtiyat fondları | 2 000 000,0 |
| 4.11.1.1. | Naxçıvan Muxtar Respublikasının Ehtiyat Fondu | 2 000 000,0 |
| 4.11.2. | məqsədli büdcə fondları | 5 870 000,0 |
| 4.11.2.1. | “Avtomobil Yolları” Məqsədli Büdcə Fondu | 5 870 000,0 |
| 4.11.3. | əsas bölmələrə aid edilməyən tədbirlər üzrə digər fəaliyyət | 1 837 489,0 |
| 4.11.3.1. | fövqəladə halların nəticələrinin aradan qaldırılması ilə bağlı xərclər | 1 000 000,0 |
| 4.11.3.2. | digər tədbirlər üzrə xərclər | 837 489,0 |

**Maddə 5.** Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsinin xərcləri funksional və iqtisadi təsnifatın paraqrafları səviyyəsində bu Qanunun əlavəsində verilmiş məbləğlərdə təsdiq edilsin.

**Maddə 6.** Naxçıvan Muxtar Respublikasının şəhər və rayonları üzrə gəlirlər 62 781 000,0 manat, o cümlədən “Avtomobil Yolları” Məqsədli Büdcə Fonduna aid olan məbləğ 150 000,0 manat, yerli xərclər 51 925 000,0 manat, gəlirlərin yerli xərclərdən artıq olan və mərkəzləşdirilmiş gəlirlərə aid edilən hissəsinin məbləği 19 377 000,0 manat, yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılması nəzərdə tutulan vəsaitin yuxarı həddi 8 671 000,0 manat məbləğində təsdiq edilsin.

(manatla)

| Sıra №-si | Şəhər və rayonların adı | Gəlirlər | | Yerli xərclər | Gəlirlərin yerli xərclərdən artıq olan və mərkəzləşdirilmiş gəlirlərə aid edilən hissəsinin aşağı həddi | Yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılması nəzərdə tutulan vəsaitin yuxarı həddi |
|---|---|---|---|---|---|---|
| | | Cəmi | o cümlədən “Avtomobil Yolları” Məqsədli Büdcə Fonduna aid olan məbləğ | | | |
| | **Şəhər** | | | | | |
| 1. | Naxçıvan | 36 852 000 | 40 000 | 18 044 000 | 18 768 000 | |
| | **Rayonlar** | | | | | |
| 2. | Şərur | 7 699 000 | 20 000 | 7 679 000 | | |
| 3. | Babək | 5 904 000 | 40 000 | 5 255 000 | 609 000 | |
| 4. | Ordubad | 3 000 000 | 10 000 | 5 519 000 | | 2 529 000 |
| 5. | Culfa | 3 100 000 | 20 000 | 5 537 000 | | 2 457 000 |
| 6. | Şahbuz | 2 600 000 | 12 000 | 4 468 000 | | 1 880 000 |
| 7. | Kəngərli | 3 021 000 | 7 000 | 3 014 000 | | |
| 8. | Sədərək | 605 000 | 1 000 | 2 409 000 | | 1 805 000 |
| | **Cəmi:** | **62 781 000** | **150 000** | **51 925 000** | **19 377 000** | **8 671 000** |

**Maddə 7.** Dövlət büdcəsinin icrası prosesində “Büdcə sistemi haqqında” Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinə əsasən müdafiə olunan xərc maddələri ilk növbədə, digər xərc maddələri isə dövlət büdcəsinin daxilolmalarının vəziyyətindən asılı olaraq maliyyələşdirilir.

**Maddə 8.** Bu Qanun 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini** **Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 22 dekabr 2023-cü il*

# İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında Naxçıvan Muxtar Respublikasının Qanunu

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 2-ci bəndini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

**Maddə 1. Büdcənin ümumi göstəriciləri**

İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsinin gəlirləri 6 118 319,0 manat, xərcləri 6 118 319,0 manat məbləğində təsdiq edilsin.

**Maddə 2. Gəlirlər**

Müəyyən edilsin ki, 2024-cü ildə işsizlikdən sığorta fondunun gəlirləri aşağıdakı daxilolmalar hesabına formalaşır:

| Gəlirlərin mənbəyi | | Məbləğ (manatla) |
|---|---|---|
| 2.1. | İşsizlikdən sığorta üzrə sığorta haqları, cəmi | 3 610 000,0 |
| | o cümlədən: | |
| 2.1.1. | büdcədən maliyyələşən təşkilatlar üzrə | 1 380 000,0 |
| 2.1.2. | büdcədən maliyyələşən təşkilatlarda işləyənlər üzrə | 1 380 000,0 |
| 2.1.3. | qeyri-büdcə sektoru üzrə | 850 000,0 |
| 2.2. | Sair gəlirlər | 2 000,0 |
| 2.3. | 2023-cü ilin sonuna işsizlikdən sığorta fondunun istifadə olunmamış vəsaiti | 2 506 319,0 |

**Maddə 3. Xərclər**

Müəyyən edilsin ki, işsizlikdən sığorta fondunun 2024-cü il büdcəsinin xərcləri aşağıdakı istiqamətlərdə həyata keçirilir:

| Xərclərin istiqaməti | | Məbləğ (manatla) |
|---|---|---|
| 3.1. | İşsizliyə görə sığorta ödənişləri | 300 000,0 |
| 3.2. | Peşə hazırlığı və əlavə təhsilin təşkili | 727 000,0 |
| 3.3. | Əmək yarmarkalarının təşkili və peşəyönümünə dair məsləhət xidmətlərinin göstərilməsi | 100 000,0 |
| 3.4. | Haqqı ödənilən ictimai işlərin təşkili | 400 000,0 |
| 3.5. | Özünüməşğulluq tədbirlərinin təşkili | 683 000,0 |
| 3.6. | Sosial iş yerlərində işçilərin əməkhaqqının bir hissəsinin maliyyələşdirilməsi | 150 000,0 |
| 3.7. | Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin aparatının və onun yerli orqanlarının, habelə tabeliyindəki digər qurumların saxlanılması xərcləri | 3 758 319,0 |

**Maddə 4. Qalıqlardan istifadə**

İşsizlikdən sığorta fondunun (o cümlədən Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin aparatının və onun yerli orqanlarının, habelə tabeliyindəki digər qurumlarının) hesablarında ilin sonuna qalan vəsait növbəti ilin xərclərinin maliyyələşdirilməsinə yönəldilir.

**Maddə 5. Qanunun qüvvəyə minməsi**

Bu Qanun 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini** **Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 22 dekabr 2023-cü il*

# “Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun tətbiqi barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin FƏRMANI

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 30-cu maddəsini və 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq, “Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının 2023-cü il 22 dekabr tarixli 32-VI QN nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. “Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 4-cü maddəsi ilə funksional təsnifatın bölmə və köməkçi bölmələri səviyyəsində ayrılan vəsaitin məbləği inzibati təsnifata uyğun olaraq büdcədən maliyyələşən, maliyyə yardımı alan təşkilatlar və tədbirlər üzrə aşağıdakı qaydada təsdiq edilsin:

**manatla**

| | Xərclərin istiqaməti | Xərclərin məbləği | o cümlədən: | |
|---|---|---|---|---|
| | | | Mərkəzləşdirilmiş xərclər | Yerli xərclər |
| **1.1.** | **Ümumi dövlət xidmətləri** | **74 900 374,0** | **53 521 041,0** | **21 379 333,0** |
| **1.1.1.** | **Qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının fəaliyyəti** | **71 756 868,0** | **50 528 829,0** | **21 228 039,0** |
| 1.1.1.1. | Naxçıvan Muxtar Respublikasının Ali Məclisi | 6 499 098,0 | 6 499 098,0 | |
| 1.1.1.2. | Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti | 2 940 962,0 | 2 940 962,0 | |
| 1.1.1.3. | Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi | 4 171 407,0 | 4 171 407,0 | |
| 1.1.1.4. | Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi | 2 448 302,0 | 2 448 302,0 | |
| 1.1.1.5. | Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi | 1 697 379,0 | 1 697 379,0 | |
| 1.1.1.6. | Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 1 727 284,0 | 1 727 284,0 | |
| 1.1.1.7. | Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi | 812 228,0 | 812 228,0 | |
| 1.1.1.8. | Naxçıvan Muxtar Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | 1 128 856,0 | 1 128 856,0 | |
| 1.1.1.9. | Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi | 3 005 660,0 | 3 005 660,0 | |
| 1.1.1.10. | Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi | 1 339 332,0 | 1 339 332,0 | |
| 1.1.1.11. | Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyi | 2 960 544,0 | 2 960 544,0 | |
| 1.1.1.12. | Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 1 501 419,0 | 1 501 419,0 | |
| 1.1.1.13. | Naxçıvan Muxtar Respublikasının Dövlət Statistika Komitəsi | 2 635 376,0 | 2 635 376,0 | |
| 1.1.1.14. | Naxçıvan Muxtar Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 996 778,0 | 996 778,0 | |
| 1.1.1.15. | Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 750 717,0 | 750 717,0 | |
| 1.1.1.16. | Naxçıvan Muxtar Respublikasının Dövlət Vergi Xidməti | 5 659 255,0 | 5 659 255,0 | |
| 1.1.1.17. | Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti | 2 545 572,0 | 2 545 572,0 | |
| 1.1.1.18. | Naxçıvan Muxtar Respublikasının Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti | 1 997 670,0 | 1 997 670,0 | |
| 1.1.1.19. | Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi | 417 394,0 | 417 394,0 | |
| 1.1.1.20. | Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti | 450 217,0 | 450 217,0 | |
| 1.1.1.21. | Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzi | 198 500,0 | 198 500,0 | |
| 1.1.1.22. | Naxçıvan Muxtar Respublikasının Bakı şəhərində Daimi Nümayəndəliyi | 801 668,0 | 801 668,0 | |
| 1.1.1.23. | Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti İdarəsi | 433 125,0 | 433 125,0 | |
| 1.1.1.24. | Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti | 857 983,0 | 857 983,0 | |
| 1.1.1.25. | Şəhər və rayon icra hakimiyyəti orqanlarının saxlanılması | 21 228 039,0 | | 21 228 039,0 |
| 1.1.1.26. | Naxçıvan Muxtar Respublikasının digər mərkəzi təşkilatlarının saxlanılması | 1 495 516,0 | 1 495 516,0 | |
| 1.1.1.26.1. | Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) | 943 449,0 | 943 449,0 | |
| 1.1.1.26.2. | Naxçıvan Muxtar Respublikasının Mərkəzi Seçki Komissiyası | 552 067,0 | 552 067,0 | |
| 1.1.1.27. | Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyi | 869 087,0 | 869 087,0 | |
| 1.1.1.28. | Qanunvericilik və icra hakimiyyəti orqanları üzrə büdcədən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri | 187 500,0 | 187 500,0 | |
| **1.1.2.** | **Elm** | **3 143 506,0** | **2 992 212,0** | **151 294,0** |
| 1.1.2.1. | Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi | 1 152 111,0 | 1 152 111,0 | |
| 1.1.2.2. | Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi | 40 698,0 | 40 698,0 | |
| 1.1.2.3. | Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin “Akademik Həsən Əliyev adına Naxçıvan Kənd Təsərrüfatı Elmi-Tədqiqat İnstitutu” | 814 220,0 | 814 220,0 | |
| 1.1.2.4. | Naxçıvan Muxtar Respublikasının Dövlət Arxiv İdarəsi | 1 136 477,0 | 985 183,0 | 151 294,0 |
| **1.2.** | **Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq** | **88 675 725,0** | **88 675 725,0** | |
| **1.2.1.** | **Məhkəmə hakimiyyəti** | **10 311 105,0** | **10 311 105,0** | |
| 1.2.1.1. | Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi | 4 506 549,0 | 4 506 549,0 | |
| 1.2.1.2. | Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsi | 983 427,0 | 983 427,0 | |
| 1.2.1.3. | Naxçıvan Muxtar Respublikasının Hərbi Məhkəməsi | 889 899,0 | 889 899,0 | |
| 1.2.1.4. | Naxçıvan Muxtar Respublikasının İnzibati Məhkəməsi | 608 794,0 | 608 794,0 | |
| 1.2.1.5. | Naxçıvan Muxtar Respublikasının Kommersiya Məhkəməsi | 590 038,0 | 590 038,0 | |
| 1.2.1.6. | Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi (maliyyə təminatı Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi tərəfindən həyata keçirilən şəhər və rayon məhkəmələri) | 2 732 398,0 | 2 732 398,0 | |
| **1.2.2.** | **Hüquq-mühafizə** | **71 490 518,0** | **71 490 518,0** | |
| 1.2.2.1. | Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi | 39 708 657,0 | 39 708 657,0 | |
| 1.2.2.2. | Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi | 4 259 610,0 | 4 259 610,0 | |
| 1.2.2.3. | Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyi | 17 846 726,0 | 17 846 726,0 | |

| | | | | |
|---|---|---|---|---|
| 1.2.2.4. | Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti | 9 505 525,0 | 9 505 525,0 | |
| 1.2.2.5. | Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin İcra və Probasiya qurumlarının büdcədənkənar xərcləri | 170 000,0 | 170 000,0 | |
| **1.2.3.** | **Prokurorluq** | **6 720 490,0** | **6 720 490,0** | |
| 1.2.3.1. | Naxçıvan Muxtar Respublikasının Prokurorluğu | 6 720 490,0 | 6 720 490,0 | |
| **1.2.4.** | **Hüquqi yardım** | **153 612,0** | **153 612,0** | |
| 1.2.4.1. | Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası | 150 600,0 | 150 600,0 | |
| 1.2.4.2. | Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi (məhkəmə qərarlarının icrası, məhkəmə prosesləri ilə bağlı göstərilən hüquqi yardım və xidmətlər) | 3 012,0 | 3 012,0 | |
| **1.3.** | **Təhsil** | **160 831 186,0** | **160 831 186,0** | |
| **1.3.1.** | **Məktəbəqədər təhsil** | **10 193 650,0** | **10 193 650,0** | |
| 1.3.1.1. | Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi | 10 193 650,0 | 10 193 650,0 | |
| **1.3.2.** | **Ümumi təhsil** | **115 626 359,0** | **115 626 359,0** | |
| 1.3.2.1. | Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi | 115 583 159,0 | 115 583 159,0 | |
| 1.3.2.2. | Tam orta təhsil üzrə maliyyələşən təşkilatların büdcədənkənar xərcləri | 43 200,0 | 43 200,0 | |
| **1.3.3.** | **Peşə təhsili** | **2 564 592,0** | **2 564 592,0** | |
| 1.3.3.1. | Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi | 1 877 092,0 | 1 877 092,0 | |
| 1.3.3.2. | Peşə təhsili üzrə maliyyələşən təşkilatların büdcədənkənar xərcləri | 687 500,0 | 687 500,0 | |
| **1.3.4.** | **Orta ixtisas təhsili** | **3 492 270,0** | **3 492 270,0** | |
| 1.3.4.1. | Naxçıvan Musiqi Kolleci | 3 317 270,0 | 3 317 270,0 | |
| 1.3.4.2. | Orta ixtisas təhsili üzrə maliyyələşən təşkilatların büdcədənkənar xərcləri | 175 000,0 | 175 000,0 | |
| **1.3.5.** | **Təhsil sahəsində digər müəssisə və tədbirlər** | **28 954 315,0** | **28 954 315,0** | |
| 1.3.5.1. | Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi | 188 408,0 | 188 408,0 | |
| 1.3.5.2. | Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi | 13 371 505,0 | 13 371 505,0 | |
| 1.3.5.3. | Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi | 15 394 402,0 | 15 394 402,0 | |
| **1.4.** | **Səhiyyə** | **11 937 343,0** | **11 937 343,0** | |
| **1.4.1.** | **Xəstəxanalar** | **6 232 949,0** | **6 232 949,0** | |
| 1.4.1.1. | Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi | 6 032 949,0 | 6 032 949,0 | |
| 1.4.1.2. | Xəstəxanalar köməkçi bölməsi üzrə maliyyələşən təşkilatların büdcədənkənar xərcləri | 200 000,0 | 200 000,0 | |
| **1.4.2.** | **Səhiyyə sahəsində proqramlar və digər xidmətlər** | **5 704 394,0** | **5 704 394,0** | |
| 1.4.2.1. | Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi | 5 704 394,0 | 5 704 394,0 | |
| **1.5.** | **Sosial müdafiə və sosial təminat** | **9 136 226,0** | **9 136 226,0** | |
| **1.5.1.** | **Sosial müdafiə** | **416 866,0** | **416 866,0** | |
| 1.5.1.1. | Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 416 866,0 | 416 866,0 | |
| **1.5.2.** | **Sosial müdafiə və sosial təminat sahələri üzrə digər müəssisə və tədbirlər** | **8 719 360,0** | **8 719 360,0** | |
| 1.5.2.1. | Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 673 500,0 | 673 500,0 | |
| 1.5.2.2. | Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində "Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi" publik hüquqi şəxs | 4 010 691,0 | 4 010 691,0 | |
| 1.5.2.3. | Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində "Sosial Xidmətlər Agentliyi" publik hüquqi şəxs | 4 035 169,0 | 4 035 169,0 | |
| **1.6.** | **Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət** | **25 800 855,0** | **25 800 855,0** | |
| **1.6.1.** | **Mədəniyyət və incəsənət sahəsində fəaliyyət** | **17 891 230,0** | **17 891 230,0** | |
| 1.6.1.1. | Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi | 17 842 476,0 | 17 842 476,0 | |
| 1.6.1.2. | Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi | 48 754,0 | 48 754,0 | |
| **1.6.2.** | **Televiziya, radio və nəşriyyat** | **5 318 231,0** | **5 318 231,0** | |
| 1.6.2.1. | "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti | 5 051 181,0 | 5 051 181,0 | |
| 1.6.2.2. | Nəşriyyat | 250 250,0 | 250 250,0 | |
| 1.6.2.3. | Televiziya, radio və nəşriyyat köməkçi bölməsi üzrə maliyyələşən təşkilatların büdcədənkənar xərcləri | 16 800,0 | 16 800,0 | |
| **1.6.3.** | **Bədən tərbiyəsi və gənclər siyasəti** | **618 195,0** | **618 195,0** | |
| 1.6.3.1. | Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi | 618 195,0 | 618 195,0 | |
| 1.6.3.1.1. | Bədən tərbiyəsi və idmanın təşkili | 490 738,0 | 490 738,0 | |
| 1.6.3.1.2. | Gənclər siyasəti | 127 457,0 | 127 457,0 | |
| **1.6.4.** | **Yaradıcı ittifaq, cəmiyyət və dini tədbirlər** | **402 977,0** | **402 977,0** | |
| 1.6.4.1. | Qeyri-dövlət təşkilatlarına verilən maliyyə yardımı | 402 977,0 | 402 977,0 | |
| **1.6.5.** | **Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər müəssisə və tədbirlər** | **1 570 222,0** | **1 570 222,0** | |
| 1.6.5.1. | Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi | 1 371 912,0 | 1 371 912,0 | |
| 1.6.5.2. | Naxçıvan Muxtar Respublikasının "Gənclər Fondu" publik hüquqi şəxs | 198 310,0 | 198 310,0 | |
| **1.7.** | **Mənzil və kommunal təsərrüfatı** | **18 632 520,0** | | **18 632 520,0** |
| 1.7.1. | Mənzil təsərrüfatı | 805 211,0 | | 805 211,0 |
| 1.7.2. | Kommunal təsərrüfatı | 14 266 343,0 | | 14 266 343,0 |
| 1.7.3. | Mənzil və kommunal təsərrüfatı ilə bağlı digər xidmətlər | 3 560 966,0 | | 3 560 966,0 |
| **1.8.** | **Kənd təsərrüfatı** | **47 130 951,0** | **47 130 951,0** | |
| **1.8.1.** | **Kənd təsərrüfatı tədbirləri** | **11 989 753,0** | **11 989 753,0** | |
| 1.8.1.1. | Naxçıvan Muxtar Respublikasında ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tədbirlər | 10 300 000,0 | 10 300 000,0 | |
| 1.8.1.2. | Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Naxçıvan Aqrar Xidmətlər Mərkəzi" publik hüquqi şəxs | 1 189 753,0 | 1 189 753,0 | |
| 1.8.1.3. | Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi (kənd təsərrüfatı heyvanlarının və bitkilərinin sığortalanması və Aqrar Sığorta Fondunun nizamnamə kapitalının formalaşdırılması) | 500 000,0 | 500 000,0 | |
| **1.8.2.** | **Baytarlıq** | **3 267 042,0** | **3 267 042,0** | |
| 1.8.2.1. | Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Naxçıvan Aqrar Xidmətlər Mərkəzi" publik hüquqi şəxs | 2 190 560,0 | 2 190 560,0 | |
| 1.8.2.2. | Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində Naxçıvan Kənd Təsərrüfatı Laboratoriyaları Mərkəzi | 1 076 482,0 | 1 076 482,0 | |
| **1.8.3.** | **Meliorasiya** | **31 874 156,0** | **31 874 156,0** | |
| 1.8.3.1. | Naxçıvan Muxtar Respublikası "Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyəti | 30 074 156,0 | 30 074 156,0 | |
| 1.8.3.2. | Meliorasiya köməkçi bölməsi üzrə maliyyələşən təşkilatların büdcədənkənar xərcləri | 1 800 000,0 | 1 800 000,0 | |
| **1.9.** | **Ətraf mühitin mühafizəsi** | **15 536 745,0** | **4 274 582,0** | **11 262 163,0** |
| **1.9.1.** | **Bioloji zənginliyin qorunması** | **599 130,0** | **599 130,0** | |
| 1.9.1.1. | Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 599 130,0 | 599 130,0 | |
| **1.9.2.** | **Torpaq və yerquruluşu** | **820 000,0** | **820 000,0** | |
| 1.9.2.1. | Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti (yerquruluşu və torpaqların kadastrı işlərinin təşkili) | 820 000,0 | 820 000,0 | |
| **1.9.3.** | **Hidrometeorologiya tədbirləri** | **1 657 102,0** | **1 657 102,0** | |
| 1.9.3.1. | Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 907 102,0 | 907 102,0 | |
| 1.9.3.2. | Ətraf mühitin mühafizəsi bölməsi üzrə maliyyələşən təşkilatların büdcədənkənar xərcləri | 750 000,0 | 750 000,0 | |
| **1.9.4.** | **Meşə təsərrüfatı** | **752 850,0** | **752 850,0** | |
| 1.9.4.1. | Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 752 850,0 | 752 850,0 | |
| **1.9.5.** | **Ərazilərin təmizlənməsi, çirkab suların yığılması və təmizlənməsi** | **11 262 163,0** | | **11 262 163,0** |
| 1.9.5.1. | Ətraf mühitin mühafizəsi sahəsi üzrə yaşayış məntəqələrinə aid olan kommunal təyinatlı infrastrukturların bərpası, yenidən qurulması və abadlaşdırılması | 11 262 163,0 | | 11 262 163,0 |
| **1.9.6.** | **Ətraf mühitin mühafizəsi sahəsinə aid edilən digər xidmətlər** | **445 500,0** | **445 500,0** | |
| 1.9.6.1. | Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 445 500,0 | 445 500,0 | |
| **1.10.** | **İqtisadi fəaliyyət** | **54 075 586,0** | **54 075 586,0** | |
| **1.10.1.** | **Nəqliyyat və rabitə** | **17 115 763,0** | **17 115 763,0** | |
| 1.10.1.1. | Avtomobil yollarının əsaslı və cari təmiri xərcləri | 16 600 000,0 | 16 600 000,0 | |
| 1.10.1.2. | Naxçıvan Muxtar Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | 515 763,0 | 515 763,0 | |
| **1.10.2.** | **İqtisadi və kommersiya fəaliyyəti** | **1 209 823,0** | **1 209 823,0** | |
| 1.10.2.1. | "Naxçıvan Qida Təhlükəsizliyi laboratoriyası, elmi araşdırmalar və sahibkarlıq subyektlərinə xidmət mərkəzi" publik hüquqi şəxs | 1 209 823,0 | 1 209 823,0 | |
| **1.10.3.** | **Tikinti və şəhərsalma** | **22 000 000,0** | **22 000 000,0** | |
| 1.10.3.1. | Dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) | 22 000 000,0 | 22 000 000,0 | |
| **1.10.4.** | **Geodeziya və faydalı qazıntılar** | **500 000,0** | **500 000,0** | |
| 1.10.4.1. | Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 500 000,0 | 500 000,0 | |
| **1.10.5.** | **Yanacaq və enerji kompleksi** | **10 000 000,0** | **10 000 000,0** | |
| 1.10.5.1. | Qeyri-dövlət müəssisələrinə subsidiyalar | 10 000 000,0 | 10 000 000,0 | |
| **1.10.6.** | **İqtisadi fəaliyyət ilə bağlı digər xidmətlər** | **3 250 000,0** | **3 250 000,0** | |
| 1.10.6.1. | "Naxçıvan Muxtar Respublikasının Dövlət Ehtiyatları Agentliyi" publik hüquqi şəxs | 500 000,0 | 500 000,0 | |
| 1.10.6.2. | "Naxçıvan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyətinin nizamnamə kapitalının artırılması | 2 750 000,0 | 2 750 000,0 | |
| **1.11.** | **Əsas bölmələrə aid edilməyən xidmətlər** | **9 707 489,0** | **9 056 505,0** | **650 984,0** |
| **1.11.1.** | **Naxçıvan Muxtar Respublikasının Ehtiyat Fondu** | **2 000 000,0** | **2 000 000,0** | |
| **1.11.2.** | **"Avtomobil Yolları" Məqsədli Büdcə Fondu** | **5 870 000,0** | **5 870 000,0** | |
| **1.11.3.** | **Əsas bölmələrə aid edilməyən tədbirlər üzrə digər fəaliyyət** | **1 837 489,0** | **1 186 505,0** | **650 984,0** |
| 1.11.3.1. | Naxçıvan Muxtar Respublikasının Ali Məclisi | 65 880,0 | 65 880,0 | |
| 1.11.3.1.1. | Dövlət təltiflərinin hazırlanması | 65 880,0 | 65 880,0 | |
| 1.11.3.2. | Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi | 120 625,0 | 120 625,0 | |
| 1.11.3.2.1. | Xüsusi müdafiə olunan və digər sənədlərin çap edilməsi və dövriyyəsinə nəzarət sisteminin tətbiqi ilə bağlı tədbirlər | 120 625,0 | 120 625,0 | |
| 1.11.3.3. | Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyi (fövqəladə halların nəticələrinin aradan qaldırılması) | 1 000 000,0 | 1 000 000,0 | |
| 1.11.3.4. | Digər xidmətlər üzrə xərclər | 650 984,0 | | 650 984,0 |

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

2.1. "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının 2023-cü il 22 dekabr tarixli 32-VI QN nömrəli Qanunu ilə büdcənin gəlirləri və xərcləri üzrə təsdiq olunmuş göstəricilərin yerinə yetirilməsinə nəzarət etsin;

2.2. bu Fərmanın 1.6.2.2-ci (Nəşriyyat) yarımbəndində nəzərdə tutulan vəsaitin bölgüsünü Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri ilə razılaşdırmaqla həyata keçirsin;

2.3. bu Fərmanın 1.10.1.1-ci (Avtomobil yollarının əsaslı və cari təmiri xərcləri) və 1.10.3.1-ci (Dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri)) yarımbəndlərində nəzərdə tutulan vəsaitin obyektlər və istiqamətlər üzrə bölgüsünü iki ay müddətində təsdiq etsin;

2.4. "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının 2023-cü il 22 dekabr tarixli 32-VI QN nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi:

3.1. 2024-cü ilin büdcəsinə vergi və dövlət rüsumları üzrə nəzərdə tutulan daxilolmaların aylıq və rüblük bölgüsünü Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi ilə razılaşdırmaqla 15 (on beş) gün müddətində təsdiq etsin;

3.2. 2024-cü ilin büdcəsinə dövlət gömrük orqanlarının səlahiyyətlərinə aid edilmiş yol vergisi üzrə nəzərdə tutulan daxilolmaların aylıq və rüblük bölgüsünü aidiyyəti üzrə razılaşdırmaqla 15 (on beş) gün müddətində təsdiq etsin;

3.3. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri ilə razılaşdırmaqla bu Fərmanın 1.1.1.28-ci, 1.2.2.5-ci, 1.3.2.2-ci, 1.3.3.2-ci, 1.3.4.2-ci, 1.4.1.2-ci, 1.6.2.3-cü, 1.8.3.2-ci, 1.9.3.2-ci yarımbəndlərində nəzərdə tutulan vəsaitin (büdcədən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri) gəlir və xərclər smetasının aidiyyəti təşkilatlar üzrə təsdiqini bir ay müddətində həyata keçirsin;

3.4. "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının 2023-cü il 22 dekabr tarixli 32-VI QN nömrəli Qanununun 7-ci maddəsindən irəli gələn vəzifələrin yerinə yetirilməsini təmin etsin;

3.5. "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının 2023-cü il 22 dekabr tarixli 32-VI QN nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

4. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi:

4.1. bu Fərmanın 1.10.1.1-ci (Avtomobil yollarının əsaslı və cari təmiri xərcləri) və 1.10.3.1-ci (Dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) yarımbəndlərində nəzərdə tutulan vəsaitin bölgüsü ilə bağlı təkliflərini 20 (iyirmi) gün müddətinə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

4.2. "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının 2023-cü il 22 dekabr tarixli 32-VI QN nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

5. Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi bu Fərmanın 1.6.4.1-ci (Qeyri-dövlət təşkilatlarına verilən maliyyə yardımı) yarımbəndində nəzərdə tutulan vəsaitin aidiyyəti təşkilatlar arasında bölgüsünü 20 (iyirmi) gün müddətində Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla həyata keçirsin və bölgüyə uyğun ödənişləri təmin etsin.

6. Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyi bu Fərmanın 1.11.3.3-cü (fövqəladə halların nəticələrinin aradan qaldırılması) yarımbəndində nəzərdə tutulan vəsaitin bölgüsünü Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla həyata keçirsin.

7. Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafəsi, Kənd Təsərrüfatı nazirlikləri, Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyi aidiyyəti üzrə bu Fərmanın 1.5.2.2-ci, 1.5.2.3-cü, 1.8.1.2-ci, 1.8.2.1-ci, 1.10.2.1-ci yarımbəndlərində, Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın 1.6.5.2-ci, 1.10.6.1-ci yarımbəndlərində göstərilən publik hüquqi şəxslər üçün nəzərdə tutulmuş vəsait daxilində, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2019-cu il 29 dekabr tarixli 195-V FR nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət adından yaradılan publik hüquqi şəxslərə dövlət büdcəsi hesabına məqsədli vəsaitin ödənilməsi Qaydası"na uyğun olaraq, müvafiq publik hüquqi şəxslərlə 15 (on beş) gün müddətində dövlət büdcəsi hesabına məqsədli vəsaitlərin ödənilməsini təmin edən ikitərəfli müqavilələrin rəsmiləşdirilməsi üçün tədbirlər görsünlər.

8. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, mərkəzi icra hakimiyyəti orqanları, büdcədən maliyyələşən və maliyyə yardımı alan təşkilatlar və digər dövlət orqanları maliyyə intizamının gücləndirilməsi, israfçılığa, izafi xərclərə yol verilməməsi və büdcə vəsaitindən qənaətlə istifadə olunması istiqamətində təsirli tədbirlər görsünlər.

9. Bu Fərmanın 1-ci hissəsi 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini**
**Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 28 dekabr 2023-cü il*

## “İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun tətbiqi barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin FƏRMANI

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 30-cu maddəsini və 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq, “İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının 2023-cü il 22 dekabr tarixli 33-VI QN nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti “İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanunundan irəli gələn məsələləri həll etsin.

2. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi işsizlikdən sığorta fondunun 2024-cü il büdcəsinin gəlirlərinin yerinə yetirilməsi üçün tədbirlər görsün və bu barədə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi işsizlikdən sığorta fondunun 2024-cü il büdcəsinin xərclərinin yerinə yetirilməsi üçün tədbirlər görsün və bu barədə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

4. Bu Fərman 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 28 dekabr 2023-cü il*

## S.N.Əzimovanın “Şərq qapısı” qəzetinin baş redaktoru təyin edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 30-cu maddəsini və 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Sara Nurəddin qızı Əzimova “Şərq qapısı” qəzetinin baş redaktoru təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 26 dekabr 2023-cü il*

# Həmrəyliyimizin ən böyük ideyası – Azərbaycançılıq



***Dekabr ayı ərzində dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimizdən alınmış müsahibələri, onların hazırladığı yazıları “Şərq qapısı” qəzetində görəcəksiniz.***

## Mədəniyyətlər arasında körpü quran qadın




Almaniyanın nüfuzlu nəşrlərindən biri olan “General Anzeige” qəzeti “Bonn sakini özünü Azərbaycanın elçisi kimi görür” sərlövhəli məqaləsində alman-Azərbaycan Dostluq Cəmiyyətinin sədri, Babək rayonunun Sirab kəndində dünyaya göz açan ***Naibə Haciyeva***nı “Mədəniyyətlər arasında körpü quran şəxs” adlandırıb. Bu məqaləni oxuyandan sonra onunla əlaqə saxlayıb Naxçıvandan zəng vurduğumu deyəndə çox sevindi. Müsahibim söhbətinə Almaniyaya gəldiyi ilk günlərdən danışaraq başlayır: – 1990-cı ildə ailə quraraq Almaniyaya gəldim, Bonn şəhərində yaşamağa başladım. Həmin illərdə burada hansı dövlətdən gəldiyimi soruşanda “Mən azərbaycanlıyam” dediyim zaman təəccüblə üzümə baxıb Azərbaycan haradadır? – deyə soruşurdular. Mənim o zamanlar ən böyük arzum Almaniyada bir restoran açıb, cəmiyyət yaradıb Azərbaycanın keçmişini, bu gününü, mədəniyyətini, ümumiyyətlə, Azərbaycanı Avropa dövlətlərinə, Almaniyada yaşayan başqa dövlətlərin nümayəndələrinə tanıtmaq idi. Bu arzuma 2008-ci ildə çatdım. Almaniyanın keçmiş paytaxtı olan Bonn şəhərində bir restoran açdım və adını da “Bakı” restoranı qoydum. “Bakı” restoranında Azərbaycan gecələri, Novruz bayramı, Xocalı soyqırımına aid yığıncaqlar və sair keçirdim. Öz ləziz mətbəximizi, mədəniyyətimizi geniş şəkildə tanıtmağa çalışdım. 2011-ci ildə alman-Azərbaycan Dostluq Cəmiyyətini yaratdım. Almaniyadakı biznes fəaliyyətimdən əldə etdiyim qazancın bir hissəsini ölkəmizin tanıdılması, təbliği və xeyriyyə məqsədlərinə yönəltdim. Mənim əsas məqsədim bu təşkilat vasitəsilə almanlarla dostluğumuzu daha da möhkəmləndirmək, həmçinin adət-ənənələrimizi almanlara daha da yaxından tanıtmaq idi. Burada yaşayanlara nəinki bizim yeməkləri, hətta milli rəqslərimizi, öz ana dilimizi belə öyrədirəm. Bununla bərabər, Azərbaycan haqqında məlumatlar verirəm. Dağlıq Qarabağ münaqişəsi, Xocalı hadisələri haqqında tez-tez söhbətlər edirəm. Almanlar bizim musiqilərimizə çox həvəslə qulaq asırlar. Hər dəfə toplantılarımızda məndən sonrakı toplantının nə zaman olacağını həvəslə soruşurlar. Demək olar ki, Azərbaycanın bütün əlamətdar günləri ilə bağlı tədbirlər keçiririk.

Naibə xanım bildirir ki, Almaniyada müxtəlif Azərbaycan dərnəkləri var. Amma hamısının məqsədi eynidir – Azərbaycan həqiqətlərini burada tanıtmaq və Almaniya cəmiyyəti ilə sıx əməkdaşlıq əlaqələri yaratmaq. Burada erməni lobbisi çox zəifdir və onların bizim fəaliyyətimizə heç bir təsiri yoxdur. Almaniyada türk və Azərbaycan birliyi daha möhkəmdir. Bizim cəmiyyət COVİD-19 pandemiyasının tüğyan etdiyi dövrdə baş verən 44 günlük Vətən müharibəsi zamanı Avropa ölkələrində küçələrə çıxan erməni lobbisinin aqressiv davranışlarından çəkinməyərək Almaniyada dörd yürüş və mitinq təşkil etdi. Qarabağla bağlı birtərəfli və qərəzli məlumatlar yayan bəzi alman KİV-lərinə sərt etirazımı bildirib, jurnalistikanın prinsiplərinə uyğun olaraq həqiqəti yazmalarını tələb etdim.

Naibə xanım Şuşada keçirilən Dünya Azərbaycanlılarının V Qurultayının iştirakçısı olub: “Almaniyada yaşayıb, fəaliyyət göstərdiyim bütün dövrlərdə Azərbaycana səfərlər edir, yaxınlarımı, dost-tanışlarımı ziyarət edir, doğma yurd yerimə baş çəkir, Vətənimlə həsrətimi bölüşürdüm. Lakin budəfəki ziyarətim tamamilə fərqli idi və bu fərqlilik özündə elə bir möhtəşəmlikləri birləşdirmişdi ki, bunu sözlə ifadə etmək, həqiqətən də, çətindir. Çünki hər bir azərbaycanlının qəlbində ən dərin həsrət Qarabağla bağlı idi və bu həsrətin nə vaxtsa başa çatacağına inanırdıq. Bilirdik, əmin idik ki, məhz dünya şöhrətli siyasi xadim, Ulu Öndər Heydər Əliyevin layiqli siyasi varisi cənab İlham Əliyev Ali Baş Komandan və xalqının Lideri qismində 30 ilə yaxın dövr ərzində təcavüzə uğrayan, işğala məruz qalan torpaqlarımızı düşmən tapdağından azad edəcək. Onun möhkəm qətiyyəti, sarsılmaz iradəsi, mütərəqqi diplomatiyası, müdrikliyi, xalqına bağlılığı 44 günlük zəfər yürüşündə öz qalibiyyət sözünü dedi. Bu həm də XALQ-PREZİDENT vəhdətinin bariz nümunəsi oldu – Azərbaycan xalqı bir yumruq kimi birləşərək yağı düşmənə qarşı amansız mübarizəyə başladı, onu məğlub etdi, diz çökdürdü”.

*Müsahibimlə bir neçə dəqiqə davam edən söhbət zamanı onun 33 illik fəaliyyətinə nəzər yetirəndə işgüzar, vətənpərvər qadın olduğuna şahidlik edirəm. Və nə yaxşı ki, azərbaycanlıyıq, nə yaxşı ki, belə gözəl Vətənin övladlarıyıq deyirəm.*

**✍ Ramiyyə ƏKBƏROVA**

## “Zəhmətkeş qadınların özünüməşğulluğunun dəstəklənməsi: layihələr və nəticələr” kitabının təqdimatı olub




*Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş “Zəhmətkeş qadınların özünüməşğulluğunun dəstəklənməsi: layihələr və nəticələr” adlı kitabın təqdimatı keçirilib.*

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin media məsələləri üzrə məsul şəxsi Günay Malikqızı çıxışında qadınların cəmiyyətdəki rolundan danışıb, Azərbaycan qadınının həmişə fədakar, zəhmətkeş, cəsur olduğunu bildirib. Günay Malikqızı Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi tərəfindən həyata keçirilən tədbirlərin əhəmiyyətini vurğulayıb, 2024-cü ilin Naxçıvan Muxtar Respublikasının 100 illiyi ilə əlamətdar olacağını və Naxçıvan qadınlarının bu yüzilliyə mühüm töhfələr verəcəyinə əminliyini bildirib.



Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxışında Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş dövlət qadın siyasətinin təməl prinsiplərinin dövlət başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini, Naxçıvan Muxtar Respublikasında qadınların dayanıqlı inkişafı, məşğulluqlarının təmin olunması və dəstəklənməsi üçün ardıcıl və məqsədyönlü layihələrin həyata keçirildiyini qeyd edib.

Ramilə Seyidova bildirib ki, komitə tərəfindən zəhmətkeş qadınların özünüməşğulluğunun dəstəklənməsi məqsədilə 4 böyük layihə və bu layihələr əsasında təlimlər təşkil edilib. Beləliklə, muxtar respublikanın müxtəlif rayonlarında yaşayan və bizneslərinə başlamaq istəyən qadınların ailə və bizneslərində maliyyə idarəetməsi üzrə bilik və bacarıqları artırılıb, həmin qadınlara verilən sərmayə kapitalı ilə onlar öz uğurlu bizneslərini qura biliblər.

Azərbaycan Mikromaliyyə Assosiasiyasının layihə rəhbəri Sevinc Rüstəmova qadın sahibkarlığının əhəmiyyəti mövzusunda təqdimat edib. Layihə iştirakçısı Qızxanım Hüseynova ona verilən sərmayə kapitalı vasitəsilə məşğul olduğu dekorativ-tətbiqi sənət sahəsini inkişaf etdirdiyini qeyd edib, qadınlara göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlığını bildirib.

Çıxış edənlər zəhmətkeş qadınları təbrik edib, onlara fəaliyyətlərində yeni uğurlar arzulayıb.

Sonra fəal layihə iştirakçılarına və Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə səmərəli əməkdaşlıq edən media nümayəndələrinə təşəkkürnamələr təqdim edilib. “Zəhmətkeş qadınların özünüməşğulluğunun dəstəklənməsi: layihələr və nəticələr” adlı kitabın sərgisinə baxış olub.

Qeyd edək ki, “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində nəfis tərtibatla dərc edilən kitabda muxtar respublikada qadınların özünüməşğulluğunun dəstəklənməsi ilə bağlı muxtar respublikada keçirilən tədbirlər haqqında məlumatlar və çəkilmiş fotoşəkillərdən nümunələr öz əksini tapıb. Kitabda, həmçinin layihələrdə 17 təsərrüfat sahəsi üzrə iştirak etmiş 63 qadının istehsal etdikləri məhsullar və əmək fəaliyyətlərini əks etdirən fotoşəkillər yer alıb.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

## Konsert keçiriləcək

Dekabrın 30-da Ordubad Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni ilə həsr olunmuş konsert proqramı baş tutacaq. Konsertin ifaçıları Əməkdar artist Nuriyyə Hüseynova və bəstəkar-ifaçı Çilənay Hüseynovadır. Saat $14^{00}$-da Ordubad şəhərində baş tutacaq konsertə hər kəs dəvətlidir.





**Xəbərlər şöbəsi**

### *İtmişdir*

Kəngərli rayonunun Qarabağlar kəndində yaşayan Ağayeva Rübabə Səttar qızının adına olan A-022355 nömrəli torpaq sahəsinin plan və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Abdullayev Gülxan Aydın oğlunun adına olan MN-0047301 seriya nömrəli zabitin şəxsi vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: SARA ƏZİMOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 753